**BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ**

***№2 Humanitar elmlər seriyası 2021***

**UOT 94**

# SSRİ-DƏ YAŞAYAN TÜRK XALQLARININ XX ƏSRİN II YARISINDA İCTİMAİ-SİYASİ PROSESLƏRİNƏ DAİR

**Neyman N.XASAYEV***

*Məqalə XX əsrin 60-80-ci illərində dünyada gedən ictimai-siyasi proseslər kontekstində Sovetlər birliyində yaşayan çoxsaylı türk xalqlarına qarşı SSRİ-nin dini-ideoloji, milli-ideoloji zəmində ayrı-seçkilik siyasətinin yürüdülməsindən bəhs edir. Müəllif lazımi yazılı materiallara istinad etməklə Moskvanın türk xalqlarına qarşı bu dövrdə apardığı siyasətin bütün istiqamətlər üzrə neomüstəmləkəçi xarakter daşıması fikrinə gəlir və ona öz münasibətini bildirir.*

*Məqalədə Ümummilli Lider Heydər Əliyevin birinci hakimiyyəti dövründə (1969-1982) Azərbaycanda həyata keçirilən milli dövlət quruculuğu işlərinin gedişinə xüsusi yer verilir. Bu istiqamətdə həyata keçirilən əsaslı işlərin müstəqil Azərbaycan respublikasının təməl prinsipinə çevrildiyi qənaətinə gəlinir.*

**Açar sözlər:** SSRİ, Krım türkləri, türk-müsəlmanlar, Şimali Azərbaycan, Heydər Əliyev

**Giriş.** XX əsrin 60-80-ci illərində ümumdünya sosializm sisteminə liderlik edən Qırmızı imperiya (SSRİ - N.X.) beynəlxalq aləmə hələ də özünü sülhün, humanizmin, beynəlmiləlçiliyin, xalqlar dostluğunun bərqərar olduğu, ərazisində irqi, milli-dini ayrı-seçkilik siyasətinin həyata keçirilmədiyi demokratik rejimli federativ bir dövlət kimi təqdim etməkdə idi. Əslində isə o, nəinki, sosializm sisteminə dəmir və qan gücünə tabe etdiyi 14 dövlətdə, eləcə də sivri rus süngiləri ilə satallitinə çevirdiyi 14 sovet sosialist respublikasının hər birində neomüstəmləkəçilik (yeni müstəmləkəçilik – N.X.) siyasəti yürütməkdə idi [1]. Bu dövrdə Qırmızı imperiyaya işğal yolu ilə tabe edilmiş beş türk-müsəlman ölkəsinə – Azərbaycana, Özbəkistana, Qazaxıstana, Türkmənistana, Qırğızıstana və eləcə də RSFSR-in tərkibindəki türk siyasi qurumlarına yönəlik irqi, dini-ideoloji, milli-etnik xarakterli ayrı-seçkilik siyasəti daha sərt, daha amansız olması ilə fərqlənirdi. Lakin siyasi rejim tərəfindən məxfi aparılan bu hiyləgər, riyakar və kinli siyasət daim təhrif olunaraq pərdələnirdi. Qırmızı imperiya XX əsrin 20-30-cu illərində silah gücünə təbəəsinə çevirdiyi türk- müsəlman əhalisinin dözülməz vəziyyəti haqqında dünya ictimaiyyətinə obyektiv şərhlər verən əcnəbi, mühacir tarixçi, politoloq, sosioloqlara isə

* *Sumqayıt Dövlət Universiteti, dosent; nemanxasiyev@gmail.com; ORCİD İD: 0000-0002-8623-5112*

“burjua saxtakarları” damğası vurmaqdan çəkinmirdi [2].

Məqalənin mövzusu tədqiqata cəlb edilmiş xronoloji çərçivədə Qırmızı imperiyanın türk xalqlarına qarşı yürütdüyi məxfi və məkirli siyasətə obyektiv qiymət vermək baxımından olduqca aktualdır. XX əsrin 60-80-ci illərində sovet idarəetmə sistemindəki subyektivliyə, saxtakarlığa, konyukturçuluğa, rejimə qarşı çevirilmiş ictimai-siyasi proseslərə sinfilik, sinfi qarşıdurma mövqeyindən yanaşmalara ümumi münasibət bildirmək baxımından da öyrənilən problem diqqəti cəlb edir.

**Krım türkləri Qırmızı imperiyanın neomüstəmləkəçilik siyasətinə qarşı milli müqavimət hərəkatında.** 1944-cü ilin 18-20 may tarixində Sovet dövlət başçısı, Ali baş Komandan İosif Stalinin göstərişi, Sovet Dövlət Təhlükəsizliyi Komitəsinin və gizli polisinin rəhbəri Lavrentiy Beriyanın icraatı ilə təxminən 400 mindən artıq Krım türkü Vətənlərindən kütləvi şəkildə, silah gücünə çıxarılaraq Orta Asiya və Qazaxıstana sürgün edilmişdi [3]. İosif Stalin repressiyasının növbəti dalğasının qurbanına çevrilmiş oğuz və qıpçaq mənşəli aborigen Krım türkləri [4, 74, 123] tarixən yaşadıqları coğrafiyaya qayıtmaqda israrlı olsalar da, əfsus ki, onların kompakt halda Vətənə qayıdışı yalnız 45 ildən sonra mümkün oldu. Çünki, sovet inzibati amirlik sistemindəki 1956-cı ilin “yumşalma” siyasəti Krım türklərinə şamil edilmədiyi səbəbindən, hətta XX əsrin 80-ci illərinin sonuna qədər müxtəlif süni maneələr onların Vətənə qayıdışlarına imkan verilməmişdi. Krım türkləri XX əsrin 60-80-ci illərində bu süni maneələri aradan qaldırmaq məqsədi ilə yurd-yuvalarından haqsız yerə deportasiya edilmələri ilə bağlı dünya ictimaiyyətinə haqq səslərini çatdırır, beynəlxalq təşkilatlara, cəmiyyətlərə hüquq və imtiyazlarının bərpasına dair bəyannamələr ünvanlayırdılar. Bununla kifayətlənməyib ümdə məqsədlərinə çatmaq üçün paralel olaraq zorla köçürüldükləri yerlərdə disident kimi fəaliyyət göstərir, qeyri-leqal birliklər yaratmaqla ictimai-siyasi cəhətdən təşkilatlanmağa cəhdlər də edirdilər. Krım türklərinin Vətənə qayıdış uğurunda apardığı dönməz milli mücadilə hərəkatı XX əsrin 80-ci illərinin ikinci yarısından etibarən artıq öz müsbət nəticəsini verir, sovet siyasi rejimi yerli Krım əhalisinə qarşı yürütdüyü dözülməz siyasətlə bağlı beynəlxalq ictimaiyyətin qınaq obyektinə çevrilirdi. Krım türkləri ilə əlaqəli beynəlxalq qınağı nəzərə almayıb ona etinasız yanaşan Qırmızı imperiyanın mərkəzi Moskva isə regiona slavyan-xristian mənşəli əhalini sürətlə yerləşdirirdi. Bununla da o, tarixi türk torpağı Krımın etno-siyasi mənzərəsini öz məqsədinə uyğun şəkildə dəyişdirmək planını həyata keçirməkdən əlçəkməyəcəyini bütün dunyaya bəyan etmiş olurdu.

Yalnız Qırmızı imperiyanın süqutu ərəfəsində, 1989-cu ildən etibarən Krım türkləri BMT və digər beynəlxalq humanitar təşkilatların onlara dayaq durması nəticəsində, nəhayət, kütləvi şəkildə Vətənə dönməyə başladılar. Onlar Vətənə dönərkən əzəli yurd yerlərinin qəsdən dağıdılması, viran edilərək boş çöllük ərazilərə çevirilməsi acısını yaşamalı olmuşdular. Krım türkləri Moskvanın məxfi göstərişi ilə həyata keçirilən bu vandal, barbar hərəkətlərdən

sarsılsalar da ruhdan düşməmiş, mövcud siyasi rejim tərəfindən müdafiə olunan xristian-slavyan mənşəli gəlmələrin müqavimətini qırıb qədim yurd yerlərində yenidən məskunlaşmağı bacarmışdılar. Krım türkləri, həmçinin qısa zaman ərzində mütəşəkkil şəkildə təşkilatlanmaqla, doğma el-obalarında ictimai-siyasi birliklərini, cəmiyyətlərini yaradaraq əzəldən nifrət etdikləri, mövcudluğu ilə heç bir zaman barışmadıqları Qırmızı imperiyanın çöküşündə də fəal iştirak etmişdilər...

**Volqaboyu, Ural, Sibir, Orta Asiya, Qazaxıstan və Şimali Qafqazın türk-müsəlman əhalisinin XX əsrin 60-80-ci illərindəki ictimai-siyasi vəziyyətinə dair.** Volqaboyu, Ural, Sibir, Altay regionlarında tarixən yaşayan kazan-bulqar, başqırd, saka, tuva, xakas, altay, çuvaş, kalmık və digər türk toplumları XX əsrin 60-80-ci illərində Moskvanın onlara yönəlik neomüstəmləkəçilik siyasəti ilə artıq barışmaq istəmirdilər. Bu mənfur siyasətə qarşı açıq şəkildə dözümsüzlük nümayiş etdirməyə başlamışdılar. Onlar XX əsrin 80-ci illərinin II yarısından etibarən imperiyanın mərkəzinə öz ictimai-siyasi etirazlarını, dini-etnik xarakterli milli müqavimətlərini, dirənişlərini təşkilatlanmaqla, qeyri-leqal formada siyasi partiya və cəmiyyətlər yaratmaqla, kütləvi nümayişlər, mitinqlər təşkil etməklə bildirməyə başlamışdılar. Rusların "yakut" kimi qələmə verdiyi saka türkləri Qırmızı imperiyanın milli-irqi ayrı-seçkilik siyasətinə qarşı ilk etiraz səsini qaldıran türk toplumları sırasına daxildirlər [5]. Volqaboyu, Sibir və Uralboyu ərazilərdə tarixən məskunlaşan və mövud siyasi rejim tərəfindən RSFSR-in tabeçiliyinə verilən digər türk toplumları da SSRİ-nin süqutu ərəfəsində artıq milli sərvətlərinin əvəzsiz olaraq əllərindən alınıb Qırmızı imperiyanın mərkəzinə aparılması ilə hesablaşmaq istəmir, milli-etnik mənsubiyyətlərinin tanınması, siyasi müstəqilliklərinin əldə olunması, milli iqtisadiyyatlarının bərpası və dirçəlişi naminə kütləvi etirazlara cəhd göstərirdilər.

Şimali, Mərkəzi Qafqazı və Dağıstanı əzəli yurd yerlərinə çevirən Bulqar, Qaraçay, Kumık və Dərbənd türkləri də XX əsrin 60-80-ci illərində inzibati-amirlik sisteminin neomüstəmləkəçilik siyasəti ilə qarşılaşmalı olmuşdular. Qımızı imperiyanın neomüstəmləkəçilik siyasəti özünü yerli türk-müsəlman əhalisinin doğma ana dillərində təhsil almaq hüququndan məhrum edilmələrində, nüfuzlu ali məktəblərdə təhsil almağın onlara əksərən müəssər olmamasında, bu səbəbdən də yerli mütəxəssislər tərəfindən deyil, yad, rus-xristian mənşəli məmurlar tərəfindən aşağılayıcı formada idarə edilmələrində göstərməkdə idi. Bu məkirli, alçaldıcı imperalist siyasət onlara məxsus xammal resurslarının dəyəri ödənilmədən Moskvanın sərəncamına verilməsində, dini mərasimlərini, milli bayramlarını, folklor nümunələrini, özgür ayinlərini leqal deyil, gizli formada, qorxu, sək-səkə içərisində icra etmələrində, milli yönümlü təşkilatlanmalarının qarşısının dərhal alınmasında da özünü aydın şəkildə büruzə verməkdə idi. SSRİ-nin süqutu ərəfəsində Şimali, Mərkəzi Qafqaz və Dağıstan türkləri də siyasi cəhətdən qeyri-leqal formada təşkilatlanıb bir araya gəlməklə milli müstəqillikləri uğrunda mütəşəkkil, ümummilli mübarizə hərəkatı mərhələsinə qədəm qoymuşdular.

Orta Asiya və Qazaxıstanın türk xalqları da XX əsrin 60-80-ci illərində Qırmızı imperiyanın onlara qarşı yürütdüyü təhqiredici neomüstəmləkəçilik siyasətindən əzab çəkməkdə idilər. Qazaxıstan, Özbəkistan, Türkmənistan və Qırğızıstan türk sovet sosialist respublikalarının 1937-ci il konstitusiyalarında SSRİ-nin tərkibinə könüllü şəkildə daxil olduqları formal olaraq təsbit edilsə də, əslində onların Sovet Rusiyasının işğalına məruz qalıb Qırmızı imperiyaya zorla qatıldıqları dünya ictimaiyyətinə yaxşı məlum idi. Onlar SSRİ-nin tərkibinə işğal və ilhaq yolu ilə tabe edildikləri ilk vaxtdan etibarən etnik-dini kimliklərinə qarşı sovet siyasi rejiminin sərgilədiyi ögey münasibətə etiraz olaraq "Basmaçı" adlı milli azadlıq hərəkatına başlamışdılar. Qırmızı imperiyanın şovinist mövqeli siyasi idarəetmə sisteminə qarşı yönəlməklə Orta Asiyanı bütünlüklə bürümüş dini-etnik xarakterli "Basmaçı" xalq azadlıq hərəkatı [6] XX əsrin 30-cu illərinin sonunda qan içində boğularaq, demək olar ki, yatırılsa da, "velikorus" şovinizmi bu hərəkatı qaldıranların varislərinin yenidən ayaga qalxacaqlarından ehtiyatlandığı üçün onları daim ciddi nəzarəti altında saxlamaqda idi. Bu səbəbdən də Orta Asiya və Qazaxstan türk toplumlarının nəinki, XX əsrin 60-80-ci illərində qaldırmaq istədikləri milli azadlıq hərəkatları amansızlıqla yatırılır, hətta kiçik disident hadisələrinin qarşısı belə həbs, sürgün və digər siyasi təqiblər yolu ilə dərhal alınırdı. Bu türk-müsəlman ölkələrinin yerli sakinləri bir çox əzab-əziyyətlərə dözərək böyuk zəhmətlə becərdikləri pambığı, taxıl və taxıl məhsullarını, üzüm, şərab və tütün kimi digər strateji əhəmiyyətli nemətlərini dünya bazarlarına çıxarıb onların satışından külli miqdarda milli gəlir əldə etmək əvəzinə, Rusiyaya göndərməyə məcbur edilirdilər. Acıncaqlı və dözülməz hal, demək olar ki, ödəniş edilmədən Rusiyaya daşınan xammal və yarımfabrikat məhsullarının orada fabrik və zavod mərhələsi keçməklə tamamlanıb, son dərəcə baha qiymətə satılmaq üçün Orta Asiya və Qazaxıstana qaytarılmasında özünü daha qabarıq formada büruzə verməkdə idi.

Qırmızı imperiyanın neomüstəmləkəçilik siyasətinə qarşı çıxmaqla ölkəsinin muxtar yönümlü milli iqtisadiyyatını real şəkildə qurmağa cəhd edən Özbəkistan Sovet Sosialist Respublikası Mərkəzi Komitəsinin I katibi Şərəf Rəşidov Moskva tərəfindən korrupsionerlik və rüşvətxorluqda suçlanaraq cəzalandırılmışdı. Haşiyə olaraq qeyd edək ki, Özbəkistanın siyasi müstəqillik əldə etməsindən sonra Şərəf Rəşidova bəraət verilməsi istiqamətində ölkə başçısı İslam Kərimov tərəfindən bir çox real addımlar atılmışdır [7].

SSRİ-nin süqutu ərəfəsində Özbəkistanın Fərqanə vilayətində özbək, qırğız, qazax, uyğur və məshəti türk toplumlarının birlikdə kütləvi etiraz çıxışlarına başlamaları və bu etiraz çıxışlarının digər ərazilərə də yayılması Moskvanı son dərəcə narahat etməkdə idi. 1988-ci ilin yazında Orta Asiyanın dini-etnik cəhətdən ən həssas regionu olan Fərqanə vilayətində mövcud rejimin milli-dini ayrı-seçkilik siyasətinə qarşı yönəlmiş özbək, məshəti (axısqa), uyğur, qazax və qırğız türk-müsəlman gənclərinin təşkil etdiyi kütləvi etiraz çıxışları geniş xarakter almış və radikallıqları ilə beynəlxalq aləmin diqqətini

cəlb etmişdi. Bu milli-siyasi xarakterli kütləvi etiraz çıxışlarının gedişi zamanı səsləndirilən şuarların əksər hissəsinin "rədd olsun ruslar", "ruslarsız Özbəkistan" kimi qeydə alınması faktı respublikada yaşayan türk-müsəlman əhalisinin imperiyanın ölkədə apardığı ruslaşdırma siyasətinə qarşı birgə mübarizəyə başladığını qabarıq şəkildə əks etdirməkdə idi. Bundan ehtiyatlanan Moskva dərhal "velikorus" şovinizminin vahid sovet xalqı yaratmaq adı altında yürütdüyü ruslasdırma, xristianlaşdırma siyasətinə qarşı çıxan ümumtürk birliyini parçalmaq planını işləyib hazırlamışdı. Bu məkirli plan türk toplumlarının kompakt halda yaşadığı Özbəkistanın Fərqanə vilayətində (1876-cı ildə çarizmin ləğv etdiyi Kokand xanlığının yerləşdiyi tarixi coğrafiyada) çox sürətlə həyata keçirilmişdi. Qırmızı imperiya bu hiyləgər plan üzrə türk xalqlarının arasına nifaq salmaqla, 1944-cü il repressiyası zamanı zorla əzəli vətənləri Gürcüstan ərazilərindən köçürülüb Özbəkistanda yerləşdirilmiş məshəti türklərinə qarşı yerli özbək türklərini milli-etnik zəmində münaqişəyə cəlb etməyi bacarmışdı. Mərkəzin yürütdüyü məkrli siyasətin nəticəsi olaraq 1989-cu ilin iyun ayının 1-5 təqvim günlərində baş vermiş Fərqanə faciəsi zamanı vilayətdə yaşayan ermənilər həmişə olduğu kimi yenə də Qırmızı imperiyanın lakeyi rolunda çıxış etmişdilər. Erməni fitnəkarları regiondakı milli-etnik xarakterli münaqişənin dərinləşməsində, özbək və məshəti türklərinin biri-birinə qarşı qanlı savaş açmasında, onların arasında qardaş qırğınının faciəvi, dramatik vəziyyət almasında katalizator rolunu oynamaqdan çəkinməmişdilər [8]. Milli-etnik münaqişələrin baş planının hazırlandığı fitnə-fəsad yuvası kimi tanınan Moskva Fərqanə faciəsini törətməklə regionda tezliklə özünə qarşı çevriləcək ümumtürk birliyini sarsıtmaq, ölkədə baş verməsi qaçılmaz olan milli oyanış hərəkatının qarşısını almaq niyyəti güdməkdə idi.

Qazaxıstanın dövlət başçısı Dinmühəmməd Kunayev isə Moskvanın respublikanı rus-salavyan, xristian yurduna çevirmək siyasətinə qarşı çıxış etdiyinə və ölkənin əsas strateji mərkəzlərində türkləşdirmə siyasəti həyata keçirdiyinə görə Qırmızı imperiya tərəfindən tutduğu məsul vəzifədən azad olunmuş, yerinə rus mənşəli Gennadi Kolbin təyin edilmişdi. Bu haqsızlıqdan, milli-etnik cəhətdən aşağılanmaqdan qəzəblənən Qazaxıstanın türk-müsəlman əhalisi 1986-cı ildə kütləvi şəkildə etiraz çıxışlarına başalmaqla Dinmühəmməd Kunayevin müdafiəsinə qalxmışdı. Lakin Sovet rəhbərliyi xalqın haqlı tələbini yerinə yetirmək, milli-dini münaqişəni aradan qaldırmaq əvəzinə, hərbi qüvvələrini Qazaxıstana yeridib siyasi mücadilə hərəkatına qalxmış əliyalın türk-müsəlman toplumunu qan içində boğmuşdu. Milli-dini zəmində baş vermiş bu xalq azadlıq hərəkatının gənc lideri Kayrat Riskulbekov yaxın əqidəşləri ilə birlikdə həbs edilmiş və həbsxanada qətlə yetirilmişdi [5]. Onu da qeyd edək ki, Qazaxıstanda baş qaldırmış bu milli-dini xarakterli ümumxalq etiraz çıxışı Qırmızı imperiyanın neomüstəmləkəçilik siyasətinə qarşı yönələn ilk kütləvi hərəkat kimi tanınmaqdadır.

SSRİ-nin süqutu ərəfəsində Türkmənistan və Qırğızıstan respublikalarında da milli oyanış hərəkatları baş qaldırmaqda idi. Bu respublikaların da

əksəriyyət təşkil edən turk-müsəlman toplumları Qırmızı imperiyanın tərkibindəki digər türk-müsəlman xalqları kimi neomüstəmləkəçilik siyasəti ilə artıq hesablaşmayaraq açıq etiraz çıxışları edir, ictimai-siyasi cəhətdən təşkilatlanma, biraraya gəlmə dövrünü yaşayırdılar. Türkmən və qırğız türkləri də öz milli dövlətlərini qurmaq, beynəlxalq aləmdə müstəqil siyasət yürütmək uğrunda ümumxalq hərəkatları dövrünə qədəm qoyur, Qırmızı imperyanın sarsıdılmış dayaqlarının sökülüb atılması prosesində çox yaxından, fəal surətdə iştirak edirdilər.

**XX əsrin 60-80-ci illərində Şimali Azərbaycandakı ictimai-siyasi proseslərə dair.** 1954-1959–cu illərdə Şimali Azərbaycanın siyasi müstəqilliyinə (əslində real milli-məhəlli muxtariyyətinə – N.X.) nail olmağa cəhd edən respublika başçısı İman Mustafayevin Sovet rəhbərliyi tərəfindən tutduğu vəzifədən kənarlaşdırılmasından sonra ölkə ciddi nəzarətə götürülmüşdü. Nəticədə Şimali Azərbaycanda rusdilli məktəblərin sayı xeyli artmış, Bakıdakı elit zümrə rus dilində ünsiyyət qurmağa üstünlük verməyə başlamışdı. Ölkədə Moskvaya bağlılıq və ondan asılılıq siyasi, sosial-iqtisadi, mədəni tədbirlər çərçivəsində gücləndirilmişdi. İnzibati amirlik sisteminin sərtləşdirilməsi nəticəsində respublikada milli dirçəliş istiqamətində həyata keçirilən bütün leqal tədbilərə son qoyulmuşdu. Lakin Moskvanın təzyiq və təqiblərinə rəğmən Şimali Azərbaycanda milli oyanış hərəkatı disidentlik səviyyəsində milli qayəli aydınlar tərəfindən davam etdirilməkdə idi. Ölkədə qeyri-leqal fəaliyyət göstərən siyasi təşkilatlardan biri kimi 1962-ci ildə yaradılan "Milli Azərbaycan Qərargahı" [9, 160] respublika üzrə dövlət əhəmiyyətli məsul vəzifələrə türk-müsəlman mənşə-lilərin gətirilməsini qarşısına məqsəd qoymuş, bu istiqamətdə müəyyən işləri həyata keçirməyi bacarmışdı. Əfsus ki, Şimali Azərbaycanda XX əsrin 60-cı illərində gizli fəaliyyət göstərən bütün milli qayəli təşkilatların ömrü çox az olmuş, bir müddət sonra Moskvanın göstərişi ilə izlənilərək milli-ideoloji fəaliyyətlərinə son qoyulmuşdu.

XX əsrin 60-cı illərində Qırmızı imperiya hələ də böyük uzaqgörənliklə neftqoxulu Bakını beynəlmiləl şəhər kodu altında özünə tabe etməkdə israrlı idi. Bu zaman respublikanın sosial-iqtisadi, milli-mədəni həyatındakı aşınmalar, geriləmələr hamının hiss edəcəyi səviyyədə özünü göstərməkdə idi. Belə bir acnacaqlı vəziyyətdə Ümummilli Lider Heydər Əliyev Azərbaycan SSR-ə rəhbər təyin edildi. Bu əlamətdar tarixi hadisə XIX əsrin sonu - XX əsrin əvvəllərini əhatə etməklə Şimali Azərbaycanda Xalq Cümhuriyyətinin qurulması ilə I mərhələsini müvəffəqiyyətlə sona çatdırmış milli oyanış hərəkatının [10] II məhələsinin uğurla genişlənməsinə rəvac vermişdi. 1969-cu ildə Ulu Öndər Heydər Əliyevin Azərbaycan Sovet Sosilaist Respublikası Kommunist Partiyası Mərkəzi Komitəsinin I katibi vəzifəsinə irəli çəkilməsi ölkədə misli görülməmiş milli yönümlü tədbirlərin, əməli işlərin həyata keçirilməsinin əsasını qoydu.

Dünyaşöhrətli dövlət xadimi Heydər Əliyev 1969-cu ilin avqust plenumunda açıqladığı milli qayəli platforması çərçivəsində Qırmızı imperiyada, o

cümlədən Şimali Azərbaycanda korrupsiyanın, rüşvətxorluğun, qohumbazlığın, yerlibazlığın, məmur özbaşnalığının, vəzifədən sui-istifadənin, bürokratiyanın kök ataraq artıb-çoxaldığını əsaslı dəlillər və faktlar gətirməklə SSRİ miqyasında ilk dəfə dövlət rəhbərliyi səviyyəsində sübuta yetirmişdi. Ulu Öndərin müdrikliyi, dərin, erudik zəkaya sahib olması özünü yalnız respublikadakı neqativ halları sübuta yetirməsində, sosial-iqtisadi həyatdakı tənəzzülü, onları doğuran səbəbləri üzə çıxarıb göstərməsində deyil, həmçinin qısa bir zamanda bu qlobal problemləri həll etməyin düzgün istiqamətlərini müəyyənləşdirməsində də büruzə vermişdi.

Heydər Əliyevin Azərbaycana hakimiyyətinin birinci dövründə bütün sferalarda – sosial-iqtisadi, siyasi-ideoloji, ticari-mədəni sahələrdə sıçrayışlı intibah baş vermiş, irəliyə doğru son dərəcə mütərəqqipərvər addımlar atılmışdı. O, hələ bu dövrdə ölkəmizi müstəqil bir dövlət kimi görməkdə idi [11]. Ölkədə müasir yönümlü milli dövlət quruculuğu siyasətinin təməl daşı məhz bu dövrdə Ulu Öndər tərəfindən qoyulmaqla özülü monolit hala gətirilmiş, bu fundamental bünövrə üzərində, üstqurumun ucaldılması istiqamətində gizli və aşkar şəkildə əməli işlərin həyata keçirilməsinə başlanılmışdı. Qısa bir zaman çərçivəsində Şimali Azərbaycanda qonşu respublikaları öz əzəməti ilə kölgədə qoymuş milli iqtisadi göstəricilərin əldə olunması hesabına əhalinin sosial rifah halı son dərəcə yüksəlmişdi. Uçuq-sökük komalarda yaşayan insanlar Ümummilli Liderin hakimiyyətdə olduğu ilk dövrdə özləri üçün müasir tipli yaşayış mənzilləri inşa etmiş, fərdi minik maşınları ilə təmin olunmuşdular. Azərbaycan vətəndaşları fərq qoyulmadan, milli-irqi, etnik ayrı-seçkilik siyasəti ilə qarşılaşmadan ölkə başçısı Heydər Əliyevin irəli sürdüyü humanizm, beynəlmiləlçilik ideyaları əsas olmaqla istər şəhərdə, istərsə də kənddə öz məişət həyatlarını elektro-texnikanın nailiyyətlərindən bəhrələnərək müasirləşdirmişdilər. Azərbaycan dili sözün həqiqi mənasında dövlət dili statusunu qazanmışdı. Şimali Azərbaycana qarşı yönələn, Moskvanın gizli fitvası ilə həyata vəsiqə alan erməni təxribatlarının qarşısı müdrik ictimai-siyasi xadim Heydər Əliyevin ayıq-sayıqlığı, son dərəcə çevik diplomatik gedişləri hesabına dərhal alınırdı [9, 191-228].

Təbii ki, ölkə başçısı Heydər Əliyevin qısa zaman kəsiyində respublika miqyasında həyata keçirdiyi siyasi müstəqillik yönümlü misilsiz əməli tədbirlər "velikorus" şovinizminin Azərbaycana yönəlik milli-dini ayrı-seçkilik maraqları, məxfi və məkirli planları ilə üst-üstə düşmürdü. Ona görə də "velikorus" şovinizmi bu dünyaşöhrətli siyasətçini sıradan çıxarmaq, öz xalqının gözündən salmaq məqsədi ilə Qırmızı imperiyanın ən yüksək, ən məsul vəzifələrdən birinə təyin etməklə fitnə-fəsad yuvası Moskvaya apartdırmışdı. Eyni siyasət XX əsrin əvvəllərində görkəmli ictimai-siyasi xadimi Nəriman Nərimanova qarşı da tətbiq edilmişdi [12, 171; 13].

Heydər Əliyevin 1982-ci ildə Moskvaya aparılıb SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi son dərəcə yüksək və məsul bir vəzifəyə təyin olunduğu ilk vaxtlardan etibarən Qırmızı imperiyanın paytaxtında mərkəzi

hakimiyyətə yiyələnmək uğrunda gedən siyasi mübarizə kəskin xarakter almaqla, orta əsrlər dövrünün saray çevrilişləri müstəvisinə yüksəlmişdi. Bu mühüm amil isə dünyada zorun və papulizmin gücünə bərqərar edilmiş sosializm sisteminin strateji mərkəzi sayılan Sovetlər birliyinin süqutunu daha da sürətləndirməkdə idi. Bunu Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş Katibi vəzifəsinə Siyasi Büronun ən qocaman üzvi, ayaq üstə güclə dura bilən Ç.Çernenkonun gətirilməsi faktı da təsdiqləməkdə idi. Halbuki, qırx ildən artıq sovet təhlükəsizlik orqanlarında yüksək vəzifələrdə çalışmaqla sərişləli dövlət xadiminə çevrilən, Siyasi Büronun ən gənc üzvləri sırasında yer alan Ulu Öndər Heydər Əliyev bu məsul vəzifəyə gətirilməyə layiq yeganə namizəd idi. Lakin Qırmızı imperiya həm "böyük rus milləti" siyasəti yürütməsinə, həm Heydər Əliyevin türk-müsəlman xalqlarını təmsil etməsinə, həm də Qarabağ kartını işə salmaqla dayaqları sarsılmış SSRİ-ni xilas etmək niyyətində olmasına görə bu ümdə düzgün addımı atmaq haqqında heç düşünmək belə istəmirdi. Onun bu istiqamətdə qarşısına qoyduğu yeganə məkrli məqsəd varlığı üçün ən qorxulu təhlükə mənbəyi olan Heydər Əliyevi mərkəzi hakimiyyətdən uzaqlaşdırmaqdan ibarət idi.

Qırmızı imperiyanın 1985-ci ilin aprel ayında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin I katibi vəzifəsinə təyin etdiyi Mixail Qarbaçov da elə ilk gündən Heydər Əliyevi əsas siyasi rəqibi kimi görməyə başlamış, onu icra etdiyi yüksək vəzifədən kənarlaşdırmaq üçün "velikorus" şovinizmi"nin düktəsi üzrə hərəkət etməklə erməni lobbisi ilə birlikdə bu istiqamətdə əməli tədbirlər planını işləyib hazırlamışdı. Nəhayət, 1987-ci ildə M.S.Qorbaçov tərəfindən Azərbaycanda Heydər Əliyevin hakimiyyətdə olduğu dövrdə görülən milli qayəli işləri yoxlamaq üçün Bakıya tərkibi ermənilərdən və erməni havadarlarından təşkil olunmuş xüsusi kommissiya göndərilmişdi. Bu məxfi və məkrli komissiyanın saxtakarlıqla yoğrulmuş yoxlamalarının nəticəsi olaraq Heydər Əliyevin təmsil olunduğu ali vəzifədən uzaqlaşdırmaq və onu öz doğma xalqının nəzərində adiləşdirmək göstərişləri verilmişdi. Komissiya apardığı saxta yoxlamlar nəticəsində Heydər Əliyevi təmsil olunduğu ali vəzifədən uzaqlaşdırmağa, Qarabağ kartını məharətlə gündəmə gətirib xaricdəki və Moskvadakı erməni lobbisini Qırmızı imperiyanın strateji tərəfdaşına çevirməyə nail olsa da, dünyaşöhrətli dahi şəxsiyyəti öz xalqının nəzərində adiləşdirməyi bacara bilməmiş, əksinə millətinin qəlbində əbədi yer tutacaq yenilməz heykəlini ucaltmışdır [9, 254].

Tarixi Qərbi Azərbaycanın – indiki Ermənistanın əsl aborigen sakinləri olan türk-müsəlman əhalisinin son deportasiyasını [14] və soyqırımını [15] həyata keçirmək üçün öncədən məxfi şəkildə işlənilib-hazırlanmış hiyləgər, kinli plan da Ulu Öndər Heydər Əliyevin mərkəzi hakimyyətdən uzaqlaşdırılmasından sonra reallığa çevrilmişdi. Bu məkrli planın 1988-ci ilin yanvar ayından etibarən həyata keçirilməsi nəticəsində ölkəmizə son deportasiyaya məruz qalmış Qərbi azərbaycanlıların kütləvi şəkildə gəlişi başlandı. Bu deportasiya siyasəti nəticəsində ilk dövrdə Sumqayıta 18 min 330 nəfər - 3030 ailə pənah

gətirmişdi. Erməni Katolikosluğu və lobbisi, eyni zamanda hələ XX əsrin 60-cı illərindən Şimali Azərbaycanda qeyri-leqal fəaliyyət göstərib Katalikosluq və lobbinin qəbul etdiyi qərarları qeyd-şərtsiz icra edən "Krunk", "Qarabağ" terrorçu təşkilatları Qərbi azərbaycanlılarla bağlı həyata keçirdikləri faşist, nasist yönümlü genosid əməllərini pərdələmək, beynəlxalq ictimaiyyətin nəzərində özlərinə haqq qazandırmaq üçün 1988-ci ilin fevral ayında Sumqayıtda türk-müsəlman əhalisi ilə dinc-yanşı yaşamağın tərəfdarı olan soydaşlarının öncədən planlaşdırılmış qətliamını təşkil etmişdilər. Sumqayıt hadisələrindən sonra isə erməni lobbisi və diasporası qandonduran, insanlığa, humanizmə qara ləkə olan bu cinayətkar əməllərini beynəlxalq ictimaiyyətə azərbaycanlıların "məzlum erməni xalqı"na qarşı torətdiyi soyqırım siyasəti kimi təqdim etməyə cəhd göstərmişdilər. Sumqayıt hadisəsini araşdıran komissiya "Paşa" ləqəbli erməni Eduard Qirqoriyanın avantürist öncüllüyü ilə Sumqayıtın yerli türk-müsəlman əhalisinə qarşı heç bir milli münaqişəyə girmək istəməyən, "Krunk" və "Qarabağ" terrorçu təşkilatlarına üzv olmayıb onlara vəsait ödəməyən, dinc qonşuluq münasibətləri zəminində yaşamaq istəyən erməni ailələrinin bu faciənin qurbanına çevirildiyini müəyyənləşdirmişdi [16]. Bununla da erməni nasizmi öz avantürist məqsədinə çata bilməmiş, beynəlxalq ictimaiyyəti çaşdırmağa yönəlmiş yalan və fitnə-fəsad dolu dezinformasiyaları Ulu Öndərin xalqının tələb və istəyi ilə yenidən hakimyyətə qayıdışından sonra ifşa olunaraq beynəlxalq qüvvələrin, mütərəqqipərvər bəşəriyyətin qınaq obyektinə çevrilmişdi [17].

**Nəticə.** Tarixi-siyasi yönümlü materiallara istinad etməklə aparılan araşdırma SSRİ adlı Qırmızı imperiya hüdudlarında yaşayan türk xalqlarına qarşı XX əsrin 20-30-cu illərində olduğu kimi 60-80-ci illərində də ögey münasibətin bəslənilməsi fikrini irəli sürməyə imkan yaradır. Problem mövzunun öyrənilməsi zamanı özünü sülhsevər, beynəlmiləlçi, xəlqi dövlət, dostluğun, həmrəyliyin, qardaşlığın bərqərar olduğu, dini, milli-irqi ayrı-seçkiliyin, milli-etnik ədavətin olmadığı nəhəng bir ölkə kimi beynəlxalq aləmə təqdim etmiş Qırmızı imperiyanın özünə doğma bilmədiyi türk xalqlarına qarşı bütün istiqamətlərdə neomüstəmləkəçilik siyasəti yürütməsi müəyyən edilmişdir. Məqalədə qədim türk yurdu Şimali Azərbaycanda XX əsrin 60-80-ci illərində cərəyan etmiş ictimai-siyasi proseslər zəminində Ulu Öndər Heydər Əliyevin apardığı milli dövlət quruculuğu işlərinin müstəqil Azərbaycan dövlətinin monolit təməlinə çevrilməsi qənaətinə gəlinmişdir.

Məqalənin elmi yeniliyi SSRİ-yə tabe türk xalqlarının XX əsrin 60-80-ci illərinə aid ictimai-siyasi proseslərini Azərbaycan tarixşünaslığında ilk dəfə tərəfsiz şəkildə tədqiqidir. Həmçinin problemin həllinə kompleks yanaşmaqla türk xalqlarına qarşı Qırmızı imperiyanın yürütdüyü məkirli siyasətin neomüstəmləkəçi mahiyyətini tarixə məntiqi, realist, müqayisəli yanaşma metodları ilə aşkara çıxarılması da məqalənin elmi yeniliyindən xəbər verir.

**ƏDƏBİYYAT**

1. Ağaoğlu S. Sovet Rusiya imperiyası. Bakı: Xan, 2017, 192 s.
2. Krım tatarlarının deportasiyası: bu günün tarixi. https://azerbaijan.mfa.gov.ua/az/news/krim-tatarlarinin-deportasiyasi-bu-gunun-tarixi. Müraciət tarixi: 20.05.2021
3. İsgəndərov A. Azərbaycanda türk-müsəlman soyqırımı probleminin tarixşünaslığı - 1918-1920. Bakı: Adiloğlu, 2006, 396 s.
4. Bedirhan Y. İslam öncəsi türk tarihi və kültürü. Konya: Egitim yayım evi, 2017, 256 s.
5. İlyasova X. XX əsrin 80-90-cı illərində Qazaxıstanda milli azadlıq mübarizəsi // Bakı Universitetinin xəbərləri. Humanitar elmlər seriyası. № 4. Bakı: Bakı Universiteti, 2014, s. 102-107.
6. Basmacılar. 02.12.2017. https://kafkassam.com/basmacilar.html. Müraciət tarixi: 02.03.2021
7. Özbəkistan kommunist rəhbərə doğru...- Nə baş verir?. 23.12.2012 // https://teleqraf.com/news/dunya/120042.html. Müraciət tarixi: 02.03.2021
8. Unudulmaz türk qırğını – Fəqanə faciəsi. Kaspi. 2011, 11 mart, s.11.
9. Azərbaycan tarixi. 7 cilddə. VII c. Bakı: Elm, 2003, 628 s.
10. Xasayev N. Şimali Azərbaycanda milli oyanış hərəkatı (XIX əsrin sonu - XX əsrin əvvəlləri). Sumqayıt: SDU-nun Redaksiya və nəşr işləri şöbəsi, 2017, 269 s.
11. Ələsgərov M. Heydər Əliyev yolu əbədidir. Yeni Azərbaycan Partiyası 15 il yüksəliş yolunda. Yeni Azərbaycan Partiyasının yaradılmasının 15-ci ildönümünə həsr olunmuş konfransın materialları. I bölmə. Bakı: 2008, s.7-14.
12. Azərbaycan tarixi. 7 cilddə. VI c. Bakı : Elm, 2000, 568 s.
13. Həsənov H.Ə. Nəriman Nərimanovun milli dövlətçilik baxışları və fəaliyyəti. Bakı: Elm, 2005, 248 s.
14. "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 18 dekabr 1997-ci il. № 656 // http://www.e-qanun. Az / framework / 4099
15. Azərbaycanlıların soyqırımı haqqında. Azərbaycan Respublikası Prezidentinin fərmanı. Bakı şəhəri 26 mart, 1998-ci il. № 690 // http://www.e-qanun.az/framework/4684
16. 20 Yanvar. Azərbaycan tarixinin müstəqilliyə yolaçan şərəf və şöhrət salnaməsi. Xəbərlər. Mühüm hadisələr. İSKT-AMEA İnformasiya və Texnologiya İnstitutu. // https://ict.az/az/news/5668/. Müraciət tarixi: 02.03.2021
17. Садыгов Г., Мамедов Р. Армяне в Сумгаите. Книга первая. Краткий историко-социологический очерк (1938-1994 гг.). Баку: Шур, 1994. 152 с.

## О СОЦИАЛЬНО-ПОЛИТИЧЕСКИХ ПРОЦЕССАХ ТЮРКСКИХ НАРОДОВ СССР ВО ВТОРОЙ ПОЛОВИНЕ XX ВЕКА

**Нейман Н.ХАСАЕВ**

### РЕЗЮМЕ

В статье рассматривается религиозно-идеологическая, национально-идеологическая дискриминационная политика Москвы против многочисленных тюркских народов, проживающих на СССР, в том числе в Северном Азербайджане, в контексте общественно-политических процессов в мире в 60–80-е годы XX века. Ссылаясь на необходимую литературу, автор считает, что проводимая Москвой политика против тюркских народов в то время была неоколониальной во всех направлениях, и выражает свое отношение к ней.

В статье особое внимание уделяется государственному строительству, которое

проводилось в Азербайджане во время первого правления общенационального лидера Гейдара Алиева (1969-1982). Делается вывод о том, что фундаментальная работа, проводимая в этом направлении, стала основным принципом независимой Азербайджанской Республики.

**Ключевые слова**: СССР, крымские турки, тюрко-мусульманское население, Северный Азербайджан, Гейдар Алиев

## ON SOCİAL-POLİTİCAL PROCESSES OF THE TURKİSH PEOPLES OF THE USSR İN THE SECOND HALF OF THE XX CENTURY

**Neyman N.XASAYEV**

### SUMMARY

The article deals with the religious-ideological, national-ideological discriminatory policy of Moscow against the numerous Turkish peoples living in the USSR, including Northern Azerbaijan, in the context of social-political processes in the world in the 60s and 80s of the XX century. Referring to the necessary literature, the author considers that the policy pursued by Moscow against the Turkish peoples at that time was of neo-colonial nature in all directions and expresses his attitude to it.

The article pays special attention to the work of nation-building in Azerbaijan during the first rule of National Leader HeydarAliyev (1969-1982). It is concluded that the fundamental work carried out in this direction has become a basic principle of the independent Republic of Azerbaijan.

**Keywords:** USSR, Crimean Turks, Turkish-Muslim population, Northern Azerbaijan, Haydar Aliyev